


# “BİR MƏN OYAQDIM”

Yazıçı-publisist Novruz Nəcəfoğlunun müxtəlif illərdə nəşr olunmuş ”Bir qış gününün xatirəsi”, ”Yollar uzanan gün”, ”Çarəsiz yolçu”, ”Keçən cavan çağım ola...” və s. nəsr kitabları ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Bu kitabların hər birində verilən nümunələr həyatilik yönümündə oxucuları düşündürür və onların mənəvi dünyasında xoş əhval-ruhiyyə doğurur.

Müəllifin ”Təhsil” nəşriyyatı tərəfindən yeni çapdan çıxan kitabı ”Bir mən oyaqdım” adlanır. Bu kitaba onun yeddi hekayəsi daxil edilmişdir. Hekaylərin hər biri istər mövzu, istər sənətkarlıq, istərsə də təbiilik baxımından seçilir.

Bir fikri xüsusilə qeyd etmək istərdim ki, Novruz Nəcəfoğlunun bəzi qəhrəmanları ən çox nostalji hisslərlə yaşasalar da, milli-əxlaqi dəyərləri, şərəf və ləyaqəti, həmçinin günün reallığını heç vaxt unutmurlar. Onlar üçün abır-həya, ismət ön planda yer tutur. İlk baxışda bir qədər intim təsir doğuran səhnələrin altqatında özünü qapalı saxlayan psixoloji çalarlar ibrətamiz duyğular oyadır. ”Hikkə”, ”Bir mən oyaqdım”, ”Yalın belində görüş” hekayələri bu səpkidə maraqlı nümunələrdir. Həmin hekayələrin hər birinin epik qəhrəmanı azərbaycanlıdır və milli-mentaliteti hər şeydən uca tutur.

Kitabda verilən ”Ayrılıq günü” hekayəsinin qəhrəmanı Ağarza kişinin doğma od-ocağa sevgisi ayrı-ayrı incə detallar sayəsində daha canlı təsir bağışlayır. Nə qədər rahatlıq görsə də, o, ömür-gün yoldaşının dəfn olunduğu doğma kənddən kənarda - oğul-uşaq yanında bənd ala bilmir. Yenidən üz tutur öz od-ocağına...

Yazıçının ”Bir xatirənin xətrinə” hekayəsi üzərində dayanmaq istərdim. Bu əsərdə uşaq psixologiyası ayrı-ayrı məqamlar fonunda məharətlə açıqlanır. Balaca Nəcəfin və Nahidin timsalında müəllif ən incə duyğularla zəngin və əsrarəngiz uşaq dünyasının gözəlliklərini açıb göstərir. ”Bir xatirənin xətrinə” hekayəsi uşaqların həyatından bəhs etsə də, böyüklər üçün də çox maraqlıdır. Kənd həyatının əlvanlığına dərindən bələd olan müəllif kiçik qəhrəmanlarının davranışları fonunda doğma yurd-yuva sevgisini və doğma od-ocağa bağlılıq hisslərini çox ustalıqla əks etdirmişdir. Kənddə Nahidin barmağına bir tikan batması Nəcəfdə vahimə doğurur və doğurmalıdır da... Çünki o, hər addımda ətrafdan xeyirxahlıq, qayğı, nəvaziş umur və hələ həyatın enişli-yoxuşlu yollarından xəbərsizdir... Həyat lövhəsində ancaq ağ rəngə isinişir, qara rəngdən xəbərsizdir...

Onu da qeyd etməliyəm ki, bu hekayə təkcə böyüklər üçün deyil, həm də uşaqlar üçün maraqlı, düşündürücü, ibrətamiz bir əsərdir.

Novruz Nəcəfoğlunun ”Qibtə” və ”Əcəlin kölgəsi” hekayələri də oxucuları düşündürməyə qadir nümunələrdir. Bu hekayələrdə də müəllifin zəngin müşahidələri özünü qabarıq bir surətdə göstərir.

Novruz Nəcəfoğlunun kitabına daxil edilmiş yeddi hekayə də bəlkə elə bu sınağa tapınmışdır... Elə bu düşüncələr qoynunda mənə elə gəlir ki, kitabdakı yeddi hekayə də sınaqdan üzüağ çıxacaq, yaddaşlarda silinməz izlər buraxacaq və oxucuların müəllifə sevgi hissini daha da artıracaqdır.

**Ələsgər ƏLİOĞLU**